# Azərbaycan xəzinəsinə gəlir gətirə bilən qurumlar lazımdır



**Azərbaycan Respublikası çox varlı bir məmləkətdir. Son zamanlar hörmətli Prezidentimiz ucqar kənd rayonlarından tutmuş Bakıya kimi ölkəmizin bütün sahələrini inkişaf etdirmək üçün bu var-dövlətdən çox səmərəli istifadə edir. Azərbaycan şəhərləri, kəndləri gündən-günə çiçəklənir, gözəlləşir. Bu gün Prezidentimiz ilham Əliyevin rəhbərliyi altında kəndlərimizdə böyük dönüş yaranmışdır. Çox keçməz ki, Azərbaycan kənd təsərrüfatı məhsulları ilə tam şəkildə özünü təmin edəcək, hətta xarici ölkələrə də məhsullar ixrac olunacaqdır. Təəssüflər olsun ki, belə bir şəraitdə elə məmurlar da var ki, yalnız büdcə pullarını xərcləməklə məşğuldurlar və onlar dövlət büdcəsinə əlavə pul vəsaitlərinin gətirilməsi üçün heç bir təşəbbüs etmirlər. Halbuki, bu gün Azərbaycana büdcə pullarını xərcləyə bilən məmurlarla yanaşı, dövlət xəzinəsinə əlavə vəsait gətirə bilən məmurlar da lazımdır.**

Burada dahi rus yazıçısı Lev Tolstoyun bir kəlamı yadıma düşür: “Bizim ayaqlarımız altında külli miqdarda pullar tökülüb qalıb. Bu pulları görmək və əyilib onları yığmaq lazımdır”. Çox gözəl, məntiqli və ağıllı fikirdir. Mən bu məqaləmdə respublikamızın humanitar sahəsində olan bu “yiyəsiz pulların” yığılaraq, dövlət büdcəsini zənginləşdirə bilən bəzi imkanlarından danışmaq istərdim.

Məlum olduğu kimi, ölkəmizin külli miqdarda toy mərasimləri (1 ildə 10 ay müddətində) həyata keçirilir. (Belə ki, ildə 2 ay, yəni məhərrəmlik və orucluq müddətində toy mərasimləri keçirilmir). Azərbaycanda toy mərasimlərində təxminən 110-a yaxın müğənni (xanəndə, aşıq) iştirak edir və onları 4-5 nəfərdən ibarət musiqiçilər qrupu müşayiət edirlər. Lakin nəzarətsizlik üzündən xanəndə və musiqiçilər qrupundan onların qazandıqları qonorarlardan çox az miqdarda vergi dövlət büdcəsinə köçürülür. Müğənnilər onları təftiş edən vergi məmurları ilə dil tapır, nəticədə musiqiçilər dövlət büdcəsinə çox az miqdarda vergi ödəyirlər.

Bu gün toy məclislərində musiqiçilər qrupu toy yiyəsindən 2000 manatdan 15 (bəzən 20 min) min manata qədər qonorar alırlar. Bu qonorarın 80%-i müğənniyə, yerdə qalanı müşayiətçi musiqiçilərə çatır. Əgər orta hesabla toy qonorarını 8000 (səkkiz min) manatdan götürsək və ayda müğənni minimum 10 toyda iştirak edirsə (əslində ayda 10-15, hətta 20 toyda iştirak edirlər), onda 10 toy məclisindən o, 80000 (səksən min), 10 ayda isə 800000 (səkkiz yüz min) manat pul qazanır. Bu qonorara görə müğənni və onun qrupu 1 ildə dövlət büdcəsinə 224000 (iki yüz iyirmi dörd min) manat gəlir vergisi ödəməlidir. Onda respublika üzrə 110 musiqiçilər qrupu 1 ildə 24640000 (24 milyon 640 min) manat dövlət büdcəsinə vergi ödəməlidirlər. Əslində dövlət büdcəsinə ildə 8-10 milyon manat vergi kimi ödənilir, yaxud heç ödənilmir. Ona görə də bu sahəyə vahid bir mərkəzdən nəzarətin artırılması üçün “Azərbaycan dövlət konsert və el şənlikləri birliyi” adlı bir qurumun yaradılması çox vacibdir.

Qeyd etmək istərdim ki, yuxarıda göstərilən gəlirlərlə bərabər, eyni zamanda, respublikamızda və xarici ölkələrdə də həyata keçiriləcək konsertlərdən də toy məclislərində olduğu kimi, gəlirlər əldə etmək mümkündür.

Büdcəyə vergi kimi gəlir gətirə bilən digər sahəni nəzərdən keçirək: Bu gün biznes kimi fəaliyyət göstərən “Hazırlıq kursları” əlbəttə ki, çox vacib və gənc nəslin savadlı olması üçün çox lazımdır. Lakin bir faktı da yaddan çıxarmaq olmaz ki, respublikamızın əksər ümumtəhsil məktəblərinin IX - XI sinif şagirdlərinin böyük hissəsi dərslərdən yayınırlar və müxtəlif kurslarda, tək-tək bunker müəllimləri yanında bilik, bacarıq və vərdişlərini artırmaqla məşğul olurlar. Nəticədə həm məktəblərdə dərs prosesi pozulur, həm də şagirdlər külli miqdarda vəsait xərcləməklə, eyni zamanda çoxlu vaxt və güc itirirlər. Fikrimizcə, bu kurslar hansı məktəbdə imkan varsa, elə oradaca yaradılması daha məqsədəuyğun olardı. Belə olduqda, həm məktəbin büdcəsinə əlavə vəsaitlər daxil olar, həm də əldə edilmiş gəlirlərdən dövlət büdcəsinə də vergilər ödənilər, məktəbin maddi-təsərrüfat vəziyyəti yaxşılaşar, müəllimlər üçün əlavə gəlir mənbəyi yaranar və ən əsası şagirdlər məktəb dərslərindən yayınmayacaqlar, vaxtlarını müxtəlif ünvanlara getməklə boş yerə sərf etməyəcəklər. Bu gün Azərbaycanda 5000 (beş minə) yaxın orta ümumtəhsil məktəblərinin heç olmasa 3 (üç) minində belə pullu kurslar təşkil etməklə dövlət büdcəsinə milyonlarla vəsaitin daxil olmasma şərait yarada bilərlər. Belə olduqda, xüsusi statusa malik şəhid, qaçqın, köçkün, kasıb ailələrindən olan şagirdlər bu kurslarda pul ödəmədən iştirak edə bilərlər. Bu cür “Hazırlıq kursları”nın bütün ali təhsil ocaqlarında da açmaqla dövlət büdcəsinə gəlir gətirmək olar.

Bu gün dövlətimiz çoxlu sayda yeni-yeni məktəblər tikdirir, köhnə məktəbləri əsaslı şəkildə təmir edir və məktəbə lazım bütün ləvazimatlarla təmin edir. Məktəblərimizin əksəriyyətində emalatxanalar da fəaliyyət göstərirlər. Yaxşı olardı, bu emalatxanalarda dərsdən sonra müxtəlif profilli pullu dərnəklər açılsın və bu dərnəklərdə müxtəlif peşələrin öyrənilməsi ilə bərabər, müəyyən məktəbə lazım olan ləvazimatlar istehsal olunsun. Onda məktəb həm şagirdlərin ödədikləri pullardan əlavə, istehsal etdikləri məktəb ləvazimatların satışından da əlavə gəlir götürməklə bərabər, həm də dövlət büdcəsinə də vergilər ödəyər. Bu cür dərsdən sonrakı əmək məşğələlərində iştirak edən şagirdlər məktəbi bitirəndə eyni zamanda müəyyən bir peşənin sahibi də ola bilərlər.

Təəssüflə qeyd etməliyik ki, bu gün Bakı şəhərində və bölgələrdəki teatr, konsert zallarında tamaşaçı cəhətdən çoxlu problemlər yaranmışdır. Demək olar ki, bu mədəniyyət mərkəzləri artıq öz tamaşaçılarını tam şəkildə itirmişdir. Əlbəttə ki, bunun çoxlu sayda səbəbləri vardır.

Məqsədimiz bu səbəbləri açıqlamaq deyil, əksinə, bu vəziyyəti aradan qaldırmaq üçün yollar axtarmaqdır. Deyildiyi kimi, bu gün respublikamızda 5000-ə yaxın ümumtəhsil və 300-dən çox uşaq musiqi, incəsənət məktəbləri fəaliyyət göstərir. Bakı şəhərində və ətrafında 400-dən çox ümumtəhsil məktəbləri vardır. Bəs görəsən, onlardan heç olmasa il ərzində bir dəfə M.F.Axundov adına Opera-Balet Teatrının, Azərbaycan Dövlət Musiqili Komediya Teatrının, Azərbaycan Dövlət Dram Teatrının, Gənc Tamaşaçılar Teatrının tamaşalarında, M.Maqomayev adına Bakı Dövlət Filarmoniyasının konsertlərində iştirak ediblərmi? Araşdırmalar göstərir ki, məktəblərimizin heç biri bu tamaşa və konsertlərdə demək olar ki, kütləvi şəkildə tamaşaçı kimi iştirak etməmişlər. Ona görə də, qeyd olunan mədəniyyət ocaqları özlərini dolandıra bilmirlər və yalnız dövlət hesabına yaşayırlar, dövlətə gəlir gətirə bilmirlər. Halbuki, əgər Azərbaycan Təhsil Nazirliyi, Bakı Təhsil İdarəsi və Mədəniyyət Nazirliyi arasında səmərəli koordinasiya, əlaqələr olarsa, onda təkcə Bakı ümumtəhsil məktəblərinin hər birinin ildə heç olmazsa, 2 dəfə kütləvi şəkildə tamaşalarda, konsertlərdə iştirakını təşkil etməklə bu mədəniyyət mərkəzlərinin maliyyə problemlərini tam şəkildə həll etmək olar, beləliklə, zərərlə işləyən bu müəssisələr dövlətə xeyir gətirəcək, eyni zamanda, böyüməkdə olan gənc nəsil yüksək mədəniyyət sahibi olacaq. Belə olduqda, bəstəkarlarımız, şairlərimiz, yazıçı-dramaturqlarımız da yeni-yeni əsərlərin yaranmasında maraqlı olacaqlar. Aparılmış araşdırmalar sübut edir ki, əgər adları qeyd olunan bu mədəniyyət ocaqlarında hər gün tamaşalar olarsa, onların gəlirləri milyonlarla ola bilər, həm də dövlət büdcəsinə milyonlarla manat vergi daxil ola bilər. Məncə, bu ideyanı reallaşdırmağa dəyər. Bunun üçün bu sahəyə nəzarət edən məmurlar bir qədər fikirləşib vaxt sərf etsələr, bundan həm mədəniyyət ocaqları, həm böyüməkdə olan gənc nəslimiz, həm də dövlətimiz qazana bilər. Müəllimim D.B.Kabalevski dediyi kimi “Uşaqlar mədəni olarsa, bütün xalq mədəni olar!”.

Azərbaycanın kənd rayonlarının məktəbləri üçün yuxarıda göstərilənlərdən əlavə, gəlir gətirilə bilən digər yollar da vardır. Belə ki, kəndlərimizdə olan orta ümumtəhsil məktəblərinin hər birinə yerli icra orqanları tərəfindən bir neçə hektar torpaq sahələrinin ayrılması və dərsdən sonra VII - XI sinif şagirdlərinin hər gün bir sinfin şagirdləri həmin sahələrdə müxtəlif kənd təsərrüfatı məhsullarının yetişdirilərək, onların satışlarını təşkil etməklə, həm məktəbin maliyyə vəziyyətini yaxşılaşdırmaq olar, qazancdan şagirdlərə hədiyyələr verilər, həm də dövlət büdcəsinə vergi gəliri daxil olar. Bu həm də böyüməkdə olan gənc nəslin torpağa sevgisini, bağlılığını artıra bilər.

Yuxarıda humanitar sahədə gözə görünən və dövlət xəzinəsinə gəlir gətirə bilən bir sıra mənbələri göstərdik. Lakin bunlardan əlavə, elm sahəsində də gözə görünən və görünməyən bir sıra - dövlətə gəlir gətirən mənbələr vardır ki, alimlərimiz onları araşdıraraq ortaya çıxara bilərlər.

Azərbaycan dövləti bizimdir. Ona görə də insanların rifahı, yaxşı yaşamağı üçün bütün vasitələrdən, imkanlradan istifadə etmək lazımdır ki, xalqımız və dövlətimiz daha varlı və güclü olsun.

**Oqtay RƏCƏBOV,**
**bəstəkar, Rusiya Pedaqoji və Sosioloji Elmlər Akademiyasının həqiqi üzvü, professor, pedaqoji elmlər doktoru, Prezident təqaüdçüsü, Əməkdar müəllim, Y.Məmmədəliyev mükafatı laureatı, “Qabaqcıl maarif əlaçısı”.**

Respublika.- 2018.- 28 sentyabr.- S. 6.